# Son ölkə çempionu “tələbələr”ə şans vermədi

Qadın voleybolçular arasında keçirilən ölkə çempionatnın növbəti turunun oyunlarının təqvimi məlum olub. XVIII turun oyunları çərçivəsində əvvəlcə meydana “Telekom” və “Azərreyl” komandaları çıxacaqlar. Bu komandalar arasında keçirilən birinci və ikinci oyunda “dəmiryolçular” 3:0 hesabı ilə qalib gəlmişdilər. Onların bu oyunda da qələbə qazanacağı heç kimdə şübhə doğurmur. Çün-



ki rəqib çempionat başlayandan zəif təsir bağışlayır. “Azərreyl” qalib gələcəyi təqdirdə turnir cədvəlindəki möqeyini qoruyacaqdı. “Dəmiryolçular” onlara bəslənilən ümidləri doğruldub. Alessandro Çiappinin yetirmələri rəqibinə 3:0 hesabı ilə qalib gəlib. Voleybol Mərkəzində keçiriləcək ikinci oyunun daha maraqlı keçədiyini desək, yanılmarıq. Çünki burada son ölkə çempionu “Rabitə” ilə “İqtisadçı” komandaları üz-üzə gəliblər. Elə bu komandalar arasında təşkil edilən birinci görüş də gərginliyi ilə yadda qalmışdı. Belə ki, həmin oyunun birinci hissəsində “rabitəçilər” 10 top fərqi ilə rəqibi məğlubiyyətə uğratmışdılar. Marçello Abbondanzanın yetirmələri ikinci hissədə universitet komandasına məğlub olmuşdu. Lakin tələbələrin bundan artığına gücü çatmamışdı. Ardıcıl olaraq növbəti hissələrdə üstün olan “Rabitə” ümumi hesabda qalib gəlmişdi. Bu komandalar arasında təşkil edilən ikinci oyun isə daha maraqlı keçmişdi. Belə ki, birinci və ikinci hissə “İqtisadçı”nın qələbəsi ilə yekunlaşmışdı. Növbəti iki hissədə isə sevinən tərəf “Rabitə” olmuşdu. Qalib gələn komandanın adına aydınlıq gətirmək üçün klublar tay-brekdə qüvvələrini sınamışdılar. Burada güclü olan tərəf “İqtisadçı” olmuşdu. Bu oyunda isə hansı komandanın qalib gələcəyini əvvəlcədən proqnozlaşdırmaq bir qədər idi. Çünki hər iki komanda turnir cədvəlində vəziyyətini çətinləşdirməmək üçün mütləq qələbə qazanmalı idi. Lakin komandalardan yalnız biri - “Rabitə” öz məqsədinə çatıb. Belə ki, “rabitəçilər” bu oyunda 3:0 hesabı ilə qalib gəliblər. Son oyun günündə “Lokomotiv”lə “Bakı-Azəryol” üz-üzə gəliblər. Oyun gec başa çatdığından nəticələr barədə növbəti sayımızda tanış ola bilərsiniz.

## Super-liqa

### *XVIII turun oyunları*

“Telekom” - “Azərreyl”
**Birinci oyun:** “Telekom” - “Azərreyl” - 0:3 (17:25, 19:25, 12:25)
**İkinci oyun:** “Azərreyl” - “Telekom” - 3:0 (28:26, 25:19, 25:19)

“Rabitə” - “İqtisadçı”
**Birinci oyun:** “Rabitə” - “İqtisadçı” - 3:1 (25:15, 24:26, 26:24, 26:24)
**İkinci oyun:** “İqtisadçı” - “Rabitə” - 3:2 (26:24, 25:18, 29:31, 20:25, 17:15)

“Lokomotiv” - “Bakı-Azəryol”
**Birinci oyun:** “Lokomotiv” - “Bakı-Azəryol” - 3:1 (25:14, 26:28, 25:15, 25:19)
**İkinci oyun:** “Bakı-Azəryol” - “Lokomotiv” - 1:3 (19:25, 19:25, 25:18, 18:25)

| | O | Q | M | S/F | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. Rabitə | 15 | 13 | 2 | 42-13 | 1354- 1106 | 40 |
| 2. İqtisadçı | 16 | 12 | 4 | 39-19 | 1358- 1171 | 35 |
| 3. Azərreyl | 14 | 11 | 3 | 33-11 | 1105-950 | 33 |
| 4. Lokomotiv | 13 | 7 | 6 | 28-20 | 1084- 1013 | 22 |
| 5. Bakı-Azəryol | 15 | 7 | 8 | 26-28 | 1195- 1195 | 20 |
| 6. Telekom | 16 | 2 | 14 | 6-42 | 875-1165 | 6 |
| 7. Lokomotiv Biləcəri | 15 | 0 | 15 | 2-45 | 774-1170 | 0 |

# “Bizim bu nəticə ilə kifayətlənmək fikrimiz yoxdur”

***Buyaxınlarda “Olimpik Hotel” Novxanı İdman Kompleksində kyokuşinkay karate üzrə II Azərbaycan kuboku keçirildi. Turnirdə 160-a yaxın idmançı qüvvəsini sınadı. Yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Tofiq Eyvazov, Abşeron Rayon Gənclər və İdman İdarəsinin rəisi Əsgər Əmirəliyev, Novxanı Bələdiyyəsinin sədri Şahin Tağıyev, Bakı Uşu İdman Klubunun sədri Zahid Vəliyev, Kyokuşin-Kan Təşkilatının sədri Qələndər Aslanov iştirak etdilər. Çıxış edən qonaqlar son illər ölkəmizin idman sahəsində əldə etdiyi uğurlardan danışdılar. Sonra idmançıların çıxışlarına start verildi. Yarışın yekun nəticələrinə əsasən Kyokuşin-kan təşkilatı 7 qızıl medalla Azərbaycan kubokuna sahib çıxdı. Bəzi idmançılar isə yarışda digər nominasiyalar üzrə mükafatlandırıldılar.***

***Belə ki, Xəyal Nuriyev (şin-kyokuşin) ən yüksək texnika görstərdiyinə görə xüsusi mükafatla təltif edildi.***

***Döyüşçü ruhunun yüksəkliyinə görə Kyokuşin-Kan Təşkilatının yetirməsi Solmaz Zeynallı mükafatlandırıldı. Ən qısa döyüş apardığına görə Nazim Həsənzadə (İFK) qalib oldu. Turnirin ən yaxşı hakimi isə Mübariz Ağamalıyev (İFK) seçildi. Yarışdan sonra Azərbaycan kubokuna sahib olmuş Kyokuşin-Kan təşkilatının sədri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanovla görüşdük. 3-cü dan qara kəmər ustası bizi maraqlandıran sualları cavablandırdı.***

***- Ötən illərə nəzər salsaq, yetirmələriniz ölkədaxili və beynəlxalq yarışlarda hansı böyük uğurlara imza atıblar?***

- 2004-cü ilin may ayında Kyokuşin Karate Federasiyasının keçirdiyi respublika çempionatının qaliblərindən ibarət yığma komandanın üzvləri Bolqarıstanın Plovdiv şəhərində keçirilən Avropa çempionatında iştirak etdilər. Bu çempionatda klubumuzun üzvü Rüfət Xudaverdiyev gümüş mükafat qazandı. 2005-cü ildə “Samuray”ın 5 üzvü Kyokuşin Karate Federasiyasının yığma komandasının tərkibində Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən Qafqaz çempionatında iştirak etdi.




Həmin turnirdə yetirmələrimizdən ikisi qızıl, digər üç isə gümüş və bürünc medallar qazandılar. Rəhbərlik etdiyim nümayəndəlik 2007-ci ildə Kyokuşin-Kan Təşkilatının Gürcüstaının paytaxtı Tbilisi şəhərində keçirdiyi növbəti Beynəlxalq seminarında çıxış edib. Seminarda Rüfət Xudaverdiyev, Ramil Məmmədov, Qaçay Həmzəyev, Savalan Bədəlbəyli I dan qara kəmərə layiq görüldülər. 2009-cu ildə Türkiyənin İstanbul şəhərində Budo döyüş növləri üzrə keçirilən dünya çempionatında nümayəndəliyimizin 3 üzvü mübarizə apardı. Zöhrab Əliyev və Fərid Fətəliyev qızıl, Rüfət Xudaverdiyev gümüş medala sahib çıxdı.



- İdmanda əldə edilən qələbə nəticəsində ölkənin himni çalınır, bayrağı ucaldılır. Bu həm də hər bir ölkənin inkişaf səviyyəsini göstərir. Klubumuzun qarşısında duran əsas məqsəd fiziki və mənəvi cəhətdən inkişaf etmiş güclü, sağlam düşüncəyə malik gənclər hazırlamaqdır. İdmançılarımızın əldə etdikləri qələbələr yeniyetmə və gənclərimizin formalaşmasında mühüm əhəmiyyətə malikdir. Şərq əlbəyaxa döyüş növlərinə daxil olan kyokuşinkay karate idman növü bu cəhətdən mühüm əhəmiyyət kəsb edir. Yeniyetmələrimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bu sahədə əldə edilən nailiyyətlər də böyük rol oynayır. Gənclərimizin sağlam ruhda böyüməsini istəyiriksə, onların fiziki sağlamlığına diqqət yetirməliyik. Bunun üçün uşaqların kiçik yaşlarından fiziki cəhətdən inkişafına diqqət yetirmək əsas şərtlərdən biridir.

***- Bölgələrdə necə, bu idman növünün kütləviliyini artırmaq üçün yarışlar təşkil olunurmu?***

- Paytaxtla yanaşı, bölgələrdə də bu idman növünün kütləviliyini və populyarlığını artırmaq üçün mütəmadi olaraq yarışlar təşkil edirik. Bölgələrdə keçirilən rayon turnirlərində “Samuray” İdman Klubu İctimai Birliyi müvəffəqiyyətlə çıxış edir. 2007-ci il dekabrın 27-dən 28-dək Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş uşaq və yeniyetmələr arasında turnir təşkil etdik. 2011-ci ilin yanvar ayında isə Azərbaycanda olan bütün kyokuşinkay təşkilatları arasında açıq Azərbaycan kuboku turniri keçirdik. Qeyd edim ki, Kyokuşin-Kan təşkilatının Azərbaycandakı rəsmi nümayəndəsi kimi, ildə 2 dəfə kyu test-seminar və imtahanları təşkil edirik. Belə seminarlardan biri də 2010-cu ilin iyul ayında keçirildi. Bu cür seminarlar idmançılarımızın daha yaxşı nəticə əldə etməsi üçün vacibdir.



***- Rəhbərlik etdiyiniz təşkilatın qarşısında duran əsas məqsəd nədən ibarətdir?***

***- Komandanız bu gün Azərbaycan kubokuna sahib çıxdı. Hansı hissləri keçirirsiniz?***

Qələbə qazandığımız üçün sevincimizin həddi-hüdudu yoxdur. Buna görə tələbələrimə öz təşəkkürümü bildirirəm. Təşkilatın idmançıları əzmkarlıq göstərərək 7 qızıl medalla kuboku qazandılar. İdmançılarımızdan Hüseyn Baxşəliyev, Valeh Məmmədli, Səbuhi Abbasov, Təbriz Quliyev, Elvin Salmanov, Kərim Kərimov, Seymur Davıdov qızıl medala layiq görüldülər. Bizim bu nəticə ilə kifayətlənmək fikrimiz yoxdur. Çalışacağıq ki, əldə etdiyimiz nəticələri gün-gündən yaxşılaşdırq.

# “Klublar bizim üçün dəyərlidir və onların fikirlərinə hörmətlə yanaşırıq”

Voleybol üzrə keçirilən yarışlarda yeni qaydalar tətbiq olunacaq. Bu barədə Avropa Voleybol Konfederasiyasının (CEV) prezidenti Andre Meyer açıqlama yayıb: “”Qızıl set” əksər məşqçilərin narazılığına səbəb olan amillərdəndir.

Hamı narazı olmasa da, irad bildirənlər kifayət qədərdir. Klublar bizim üçün dəyərlidir və onların fikirlərinə hörmətlə yanaşırıq. CEV 2015/16 mövsümündən “Qızıl set” qaydalarını dəyişəcək. Qələbələrə görə komandalar xal alacaqlar. 3:0 və 3:1 hesablı qələbələr komandaya 3, 3:2 hesablı qələbə isə 2 xal qazandıracaq. Xallar bərabər olduğu halda “Qızıl set” keçiriləcək”.



*Şahmat*

# “Olimpiya dünyası-2013” Beynəlxalq yarışları

Guşəmizin bu sayında sizi qəzetimizin bu il üçün keçirdiyi şahmat bəstələrinin tərtibi üzrə etüd bölməsinin hakimi Yuri Bazlovun yaradıcılığı ilə tanış edirik. O, 6.10.1947 tarixdə Rusiyanın Primorsk vilayətinin Xasan rayonunun Klerk qəsəbəsində anadan olub. Vladivostokda yaşayır. Jurnalistdir. 200-dən artıq etüd dərc etdirib. 1984-cü ildə SSRİ çempionu, 2007-2009-cu illər də isə şəxsi dünya çempionatının bürünc mükafatçısı olub. Y.Bazlovun etüdləri iki dəfə ilin etüdü seçilib. Ölkəmizdə keçirilən tərtib yarışlarında, həmçinin qəzetimizin yarışlarında dəfələrlə mükafat qazanıb.

## MÜSTƏQİL HƏLL EDİN

*1. Yuri Bazlov 2005*



*Heç-heçə (=)*

*2. Yuri Bazlov 2007*



*Uduş (+)*

*3. Yuri Bazlov 2008*



*Uduş (+)*

*4. Yuri Bazlov 2008*



*Uduş (+)*

## İLK NƏŞR

*954. Fedir Kapustin, Petr Novicki (Ukrayna)*



*#2 (2 gedişə mat)*

*955. Araz Alməmmədov (Qəbələ)*



*#4 (4 gedişə mat)*

*956. Pavel Arestov (Rusiya)*



*Uduş (+)*

*957. Martin Minski (Almaniya)*



*Gediş qaralarındır, Uduş (+)*

*958. Anatoli Skripnik, Michal Hlinka (Rusiya, Slovakiya)*



*Uduş (+)*

*959. Mario Guido Garcia (Argentina)*



*Uduş (+)*

*960. Vitali Kovalenko (Rusiya)*



*Uduş (+)*

*961. Vitali Kovalenko (Rusiya)*



*Uduş (+)*

**948. Zoltan Labai (Slovakiya)** 1.Vc6! 2.Txc4+ B Axc4 3.c3#, 1...Td5 ~ 2.Txe4+ A fxe4 3.Fe3#, 1...Te5 2.Fxe5+ dxe5 3.Vc5#. **949. Aleksandr Sıqurov, Yevgeni Fomiçev (Rusiya)** 1. d4! [2.dxe5+ fxe5 3.Tg6#], 1...Fxd4 2.Te6+ Şxd5 3.Txf6#, 1...g5 2.Axf6 Fxd4, exd4 3.Axe4#, 1...exd4 2.Te6+ Şxd5 3.Txf6#, 1...exd3 e.p. 2.e4 - 3.Te6#. **950. Leonid Makaronez (İsrail)** 1.Ve3! [2.f4+ gxf3 e.p. 3.Adxf3#], 1...Fc4+ 2.Axc4+ Axc4 3.Vg3#, 1...Fxc6+ 2.Txc6 Ad5 3.Vxe4, Ac4#, 1...Vf1, h1 2.Vg3+ Şd4 3.Ab3#, 1...Txf7 2.Txe6+! Fxe6, Şxe6 3.Vxe4#. **951. V.Şevçenko, İ.Borisenko (Ukrayna), L.Lyubaşevski (İsrail)** 1.Va5! (2.Vc7 - 3.Txf7#), 1...Ae6 2.Axe6+ fxe6 3.Vd8#, 2...Şxe7 3.Vd8#, 1...Af5 2.Axf5 Fxf6 3.Vd8#, 1...Ae8 2.Txe8+ Şg7 3.Vg5#, 1...Şxe7 2.Vd8+ Şxd8 3.Ac6#. **952. V.Şevçenko, İ.Borisenko (Ukrayna)** 1.Ad2! (2.Fc3#), 1...Ad3 2.Fc3+ Ab2 3.Fxb2#, 1...Axd5 2.Şb3 z 2...Ab6 3.Fc3#, 2...Ab4 3.Fxb4 - 4.Fc3#. **953. V.Şevçenko, İ.Borisenko (Ukrayna)** 1.Fb2! (2.Fg6#), 1...Ae3 2.Fg6+ Ac2 3.Fxc2#, 2...Af5 3.Fxf5#, 1...Af2 2.Fg6+ Ae4 3.Fxe4#, 2...Ad3 3.Fxd3#, 1...Af6 2.Fg6+ Ae4 3.Fxe4#, 1...Ae5 2.Fh5 - 3.Fd1 - 4.Fc2#, 2...Ad3 3.Fg6 - 4.Fxd3#.

***İ. Əliyev (Sumqayıt)***
***Beynəlxalq hakim***